

Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir

RİİB Regional İnkişaf İctimai Birliyi

# Aylıq Bülleten

İyul | 2020

# İNKLÜZİV TƏHSİLDƏ İNAM, PAYLAŞMA VƏ DƏSTƏK MÜHİTİNİN FORMALAŞDIRILMASI

## *Müəllimlər necə öyrənirlər?*

Öyrənmə bir günlük seminarda və ya təlimdə baş vermir. Müəllimlər nadir hallarda seminar və təlimdə ekspert səviyyəsində bilik və praktiki bacarıqlar əldə edirlər. Müəllimlərin yeni təcrübəni tam başa düşməsi və tətbiq edə bilməsi üçün onlara vaxt, eyni zamanda yeni konsepsiya və təcrübələrin içərisində olmaq lazımdır. Müəllimin inkişafı yalnız davamlı və fasiləsiz olduğu halda baş tutur. Müəllimlərin öyrənməsi üçün ən yaxşı mühit öz məktəbləridir.

Adətən, müəllimlər birgə öyrənir. Öyrənmə isə sosial fəaliyyətdir. Məktəbdə inam və bilik mübadiləsi mədəniyyəti, əməkdaşlıq mexanizmləri mövcud olduqda müəllimlər daha yaxşı öyrənirlər. Müəllimlər dəstək göstərilən şəraitdə, əməkdaşlıq etdikdə, öz sinif otaqlarında yeni yanaşmaları sınaqdan keçirməyə daha meyilli olurlar. Bu, müəllimlərin fəaliyyətinin səmərəliliyinin artmasına və şagirdlərin nəticələrinin yaxşılaşmasına gətirib çıxarır.

Müəllimlər əldə etdikləri biliyi tətbiq etdikdə yaxşı nəticələr əldə olunur. Ənənəvi müəllim inkişafı prosesində öyrənmə çox zaman passiv xarakter daşıyır. Təlimçi ənənəvi olaraq, müəyyən məzmun təqdim edir. Bəzən təlimçi yeni məzmun təqdim etməzdən əvvəl iştirakçılar bu məzmunu müzakirə etməyə və öz fikirlərini bölüşməyə dəvət olunurlar. Bu yanaşma öyrənmə fəaliyyətinin çox passiv olmasına səbəb olur. Müəllimlər əsasən bilikləri qəbul edir, lakin bu bilikləri təcrübədə tətbiq etməyi öyrənmirlər və bununla bağlı dəstək almırlar. Aktiv təlim isə qrup müzakirələri və ya seminarlarda keçirilən oyunlarla məhdudlaşmır. O, yeni konsepsiya və təcrübələrlə geniş şəkildə işləməyi və əsas anlayışların və prinsiplərin real vəziyyətlərdə tətbiqini ehtiva edir.

## *Refleksiya yolu ilə öyrənmə necə həyata keçirilir?*

Refleksiya yolu ilə öyrənmə müəllimlərə bilik və bacarıqları tətbiq etmək, düşünmək, təlim üsulunu dəyişərək daha yaxşı nəticələr əldə etmək imkanı verir.

- *Fərdi refleksiya* fasilə vermək və düşünmək üçün faydalıdır. Öyrəndiklərini mənimsəmək üçün müəllimlərə fərdi refleksiya etmək lazımdır. Bu metod fərdi şəkildə öyrənənlər üçün uyğundur.
- *Qrup müzakirələri* kiçik qruplar şəklində aparılan müzakirələr müxtəlif baxış bucaqlarını öyrənməyə kömək edir. Bu metod qrup və şifahi şəkildə öyrənənlər üçün uyğundur.
- *Nümunəvi hallar* yazılı mətnlər, videolar ola bilər. Nümunəvi halların tədqiqi real sinif otağı situasiyaları ilə əlaqə qurmağa kömək edir. Bu metod məntiqi şəkildə öyrənənlər üçün uyğundur.
- *Simulyasiyalar* yeni bacarıqları təcrübədən keçirməyə kömək edir. Bu metod fiziki şəkildə öyrənənlər üçün uyğundur.
- *Dərslərin əməkdaşlıq şəraitində planlaşdırılması* müəllimlər bir araya toplanaraq dərs planlarını hazırlamaq üçün birgə çalışırlar. Daha sonra sinif otağında dərsin keçirilməsi, nəticələri yaxşılaşdırmaq üçün həmkarların müşahidə aparması və rəylər verməsi arzuedilləndir. Bu metod məntiqi və qrup şəkildə öyrənənlər üçün uyğundur.
- *Açıq dərs* təcrübəli müəllimlərdən biri sinif otağında yeni anlayışları tətbiq edərkən həmkarları onu müşahidə etmək üçün dəvət edilir. Bunun ardınca refleksiya və müzakirə sessiyası aparılır. Bu metod şifahi və vizual şəkildə öyrənənlər üçün uyğundur.
- *Təlim qrupları* bu qruplar təlimin əməkdaşlıq aspektinə köklənir. İştirakçılar ortaq bir problemi həll etmək və ya yeni anlayışların tətbiqini planlaşdırmaq üçün birlikdə çalışırlar. Qruplar öz tapdıqları və ya təlimçi tərəfindən təqdim olunan materialları oxuyur, refleksiya edir, müzakirə edir, planlaşdırır və yazırlar. Bu metod məntiqi və qrup şəklində öyrənənlər üçün uyğundur.
- *Şagirdin işinə baxmaq* dərsin daha yaxşı planlaşdırılması üçün şagirdlərin təlim nəticələri, onların necə öyrənməsi, bunun dərsin planı ilə necə əlaqələndirildiyi barədə refleksiya üçün şagirdlərin işinə baxmaq olar. Bu metod məntiqi şəkildə öyrənənlər üçün uyğundur.
- *Tapşırıq* bu fəaliyyət təlim sessiyaları arasında keçirilir. Bu, təlim sessiyalarının davamlı öyrənmə təcrübəsinə çevrilməsinə kömək edir və məzmunun faktiki tətbiqinə töhfə verir. Tapşırıqlara video roliklərə baxmaq, materialları oxumaq, resursları axtarmaq, əməkdaşlıq şəraitində dərsin planlaşdırılması, birgə tədris, bir-birinin dərslərini müşahidə etmək və rəy vermək, sınaq dərsləri daxildir. Bu metod bütün növ öyrənənlər üçün uyğundur.



## *Refleksiv müəllim olmaq niyə vacibdir?*

Müəllimlər özünürefleksiya zamanı sinif otağında etdiklərinə nəzər salır, onları niyə etdiyi və etdiklərinin nə qədər yararlı olduğu barədə düşünür. Refleksiv müəllimlər daha effektiv müəllimlərdir. Öyrətmək mürəkkəb bir peşədir. Müəllimlər çox zaman sinif otağında təkdir. Adətən bir çox şey eyni zamanda baş verir və müəllimlər çox sürətli qərarlar verirlər. Bu qərarlar sinif otağında uşaqların öyrənməsinə təsir göstərir. Sinif otağında baş verənlər barədə məlumat toplamaq və onları təhlil etmək yolu ilə müəllimlər öz fəaliyyətlərinə və bunun əsasında duran inanclara nəzər salırlar. Bu, növbəti dərs üçün alternativlər və dəyişikliklər barədə düşünməyə kömək edir.



## İnklüziv təhsildə özünürefleksiya üsulları və onların tətbiqi

Sinif otağındakı fəaliyyəti refleksiya etmək üçün müxtəlif üsullar mövcuddur. Fəaliyyəti yaxşılaşdırmaq üçün refleksiyadan istifadə barədə sistemli şəkildə düşünmək üçün mütəmadi olaraq qısa sorğu anketinə diqqət yetirmək kifayətdir. Özünürefleksiya üsulları aşağıdakılardır:

| | |
|---|---|
| *Fərdi refleksiya* | Fəaliyyətiniz barədə düşünmək üçün əvvəlcədən hazırlanmış qısa anketləri doldurursunuz. Daha yaxşı nailiyyət əldə etmək üçün nə etdiyinizə, nə üçün etdiyinizə, hansı nəticəni əldə etdiyinizə və üsulunuzda hansı dəyişikliyə ehtiyac olduğuna nəzər salmaq vacibdir. |
| *Həmkar müşahidəsi* | İş yoldaşlarınızdan biri sinif otağına gələrək dərsiniz barədə məlumat toplayır, daha sonra müşahidənin nəticələri müzakirə olunur. Məqsəd qiymətləndirmək deyil, bir-birinizdən öyrənməkdir. |
| *Dərslərin qeydə alınması* | Dərslər video və ya audio qeydiyyata alınır. Bu, refleksiya üçün çox faydalı informasiyanı təmin edə bilər. Bəzən müəllim sinifdə baş verənlərdən xəbərdar olmur və ya diqqətindən qaçırır. Video və ya audio yazıları ortaq refleksiya və öyrənmə üçün həmkarlarla paylaşmaq olar. |
| *Şagirdlərin rəyi* | Şagirdlərdən sinif otağında baş verənlər barədə düşüncələrini soruşun. Onların fikirləri fərqli ola bilər. Şagirdlərin fikrini sadə anketlər və ya öyrənmə gündəlikləri vasitəsilə aşkarlamaq olar. Bu, eyni zamanda şagirdlərə müşahidə aparmaq, refleksiya etmək və müsbət rəy vermək təcrübəsi qazandıracaq. |

## Müəllimlər üçün tövsiyə

Bülletenimizin iyun buraxılışında müəllimlər üçün UNESCO-nun “Müxtəlifliyin dəstəklənməsi: inklüziv və öyrənmə üçün əlverişli mühitin yaradılması” üzrə nəşrinə istinadən “Çoxuşaqlı siniflərin tədrisi zamanı praktiki 20 məsləhətindən 10 məsləhəti bölüşmüşdük. Bu dəfə isə növbəti 10 məsləhəti təqdim edirik:

1. Şagirdlərinizin diqqət dairəsinin 15 dəqiqə olmasını unutmayın. Mühazirənin 15 dəqiqəsindən sonra fəaliyyət və sonra ehtiyac olduqda əlavə mühazirə ideal qrafikdir. Mühazirədən başqa formada hansı informasiyanın verilə biləcəyini müəyyən edin və onun üçün metodlar hazırlayın. Məsələn, qrup işi, rollu oyun, şagirdlərin təqdimatları, sinifdənxaric oxu, sinifdə yazı işi sinifdə müəyyənləşdirilmiş rejimi rəngarəng etmək və öyrənmənin təşviqi üçün əla üsullar ola bilər.
2. Çoxuşaqlı siniflərdə tədrisinizi planlamaq üçün formal dərs planı hazırlayın. Bu şagirdlərinizin tədris edilən dərsi anlayıb-anlamamasına nəzarət etməyin bir üsuludur və sizə tədris üsulunuzu təkmilləşdirmək üçün növbəti hansı addımları atacağınızı müəyyən etməyə imkan yaradır. Planlarınızda öyrədiləcək mövzu, öyrənmə məqsədləri, tədris üsulları, sinfin təşkili, əsas fəaliyyətlər, resurslar və qiymətləndirmə metodlarını müəyyən edin.
3. Şagirdlərə dərsi yaxud konkret mövzunu niyə bu tərzdə keçdiyinizi izah edin. Məsələn, “Məhz bu səbəbdən sizə dərsin sonunda test verirəm.”
4. Günün mövzusu və öyrənmə məqsədlərinə dair planı vizual nümayiş etdirin (məsələn, lövhədə yazın). Bu sizə və şagirdlərinizə sinifdəki axını daha rahat izləməyə kömək edəcək. Dərsin əvvəli, ortası və sonunu aydın şəkildə planlayın.
5. Şagirdlərin sual vermə və cavablandırma bacarıqlarını inkişaf etdir-mək üçün gözlənilmədən suallar verin və sualı verdikdən sonra cavablandırılması üçün 10-a qədər sayın.
6. Şagirdlərinizin tədris etdiyiniz mövzunu öyrənib-öyrənməməsini müəyyən etmək üçün bunu həqiqətən qiymətləndirəcək tapşırıqlar verin. Məsələni necə həll etdiklərini izah və öyrəndiklərini gündəlik həyat tərzinə tətbiq edə bilirlərmi? Bütün tapşırıqlar üçün aydın və ətraflı təlimatlar verin.
7. Şagirdlərin uğurlarını və inkişaf etdirilməsinə ehtiyac duyulan sahələri izləmək, eləcə də əlavə diqqət tələb edən uşaqların müəyyən edilməsi üçün portfel sistemi və ya digər üsulları hazırlayın.
8. Şagirdlərinizin yadda saxladıqları deyil həqiqi öyrəndiklərini, o cümlədən öyrəndiklərini tətbiq edə bildiklərini qiymətləndirmək üçün imtahanlar hazırlayın.
9. Tapşırıq və imtahanlara dərhal rəy bildirməyə çalışın. Rəyin daha tez bildirilməsi üçün şagirdlərinizi qiymətləndirmə prosesinə cəlb edin.
10. Tədris prosesi üzərində refleksiya edin. Həmkarlarınız və şagirdlərinizlə dərsinizi necə inkişaf etdirməyinizə dair müzakirələr aparın. Çoxuşaqlı sinifdə dərs deyən həmkarlarızın dərslərində oturun, çoxuşaqlı siniflərdə tədrisə dair fikir və material mübadiləsi edin. Yuxarıda sadalananlara əlavə olaraq çoxuşaqlı sinifdə dərs deməyə çətinlik kimi deyil, məhz fürsət kimi yanaşın.

Daha ətraflı: https://www.inkluzivtehsil.az/book/25.html

Layihə Avropa İttifaqı tərəfindən maliyyələşdirilir






# İnklüziv təhsildə valideyn təcrübəsi

## Fidan Bağırova (Quba rayonu)





Mən şimal bölgəsinin ilk özəl psixoloji və nitq inkişaf mərkəzinin qurucusu və ən əsası da autizm sindromu olan Əlinin anasıyam. Autizmlə tanışlığım on ildən artıqdır. Həyatımın gənc vaxtlarından böyük bir sınaqla üz-üzə qaldım. Oğlum 2 yaşında ikən Rusiyada oğluma autizm sindromu diqanozu qoyuldu və danışmaq ehtimalının olmadığı deyildi. O gün həyatımda yeni bir mərhələ başladı. Oğluma görə ixtisasımı dəyişdim. Rusiya, Türkiyə və Azərbaycanda autizmlə bağlı təlimlərə qatıldım. 6 il Rusiyada yaşadıqdan sonra Azərbaycana döndüm. Tək bir məqsədim var idi: əldə etdiyim bilik və bacarığımla əlilliyi olan uşaqlara və onların valideynlərinə yardım etmək. Oğlumun Əlinin sosial bacarıqlarının və nitqinin inkişafı üçün fasiləsiz olaraq tədbirlər gördüm və bir gün onun ilk sözlərini eşitdim. Sevincimin həddi-hüdudu yox idi. Çünki zəhmətim bəhrə vermişdi. Müəyyən müddətdən sonra isə oğlum artıq danışmağa başladı. O, hətta özünəxidmət bacarıqlarına da yiyələnib. Bununla belə onun ümumtəhsil məktəbində təhsil almasında çətinliklər yarandı. Ancaq səriştəli sinif müəlliməsi ilə mənim əməkdaşlığım sayəsində Əli sinifdə oturmaq vərdişinə yiyələndi. Sinif yoldaşları da Əliyə dəstək olur. Oğlum yazmağı və oxumağı normal səviyyədə bacarır. O, hətta autizmli uşaqlar arasında keçirilən velosiped yarışında qələbə qazanaraq 2-ci yerə layiq görülüb. Gənclər və İdman nazirinin müavini İntiqam Babayev tərəfindən Diplom və medala layiq görülüb.

Təlim prosesində şagird, müəllim və digər kadrların autizmi olan uşaqlara dəstək göstərməsinə ehtiyac var. Bu dəstək sadəcə təlimlə məhdudlaşmamalıdır. Belə ki, autizmli uşaqların qidalanmasına da xüsusi diqqət yetirilməlidir. Müəyyən qaydada və rejimdə qidanlanmadıqda onların səhhətində çətinliklər yarana bilər ki, bu da onların təhsilinə mənfi təsir göstərə bilər. Autizmli uşaqların da parlaq gələcəyi var. Mən buna inanıram. Autizmli uşaqlar heç bir ayrı-seçkiliyə məruz qalmamalıdırlar. Onların da bilik səviyyəsinə uyğun yarışlar, müsabiqələr keçirilməlidir. Mənim oğlum da bilik müsabiqəsində iştirak etməyi çox istəyir, amma yaşıdlarından müəyyən qədər geri qaldığı üçün müsabiqələrə qatıla bilmir. Ancaq mən bilirəm ki, övladıma dəstək olmaq üçün bir çox imkanlar var. Belə ki, bir gün sinif müəllimi ilə belə bir ideyanı rallaşdırdıq: sinif səviyyəsində uşaqlar arasında bilik yarışı təşkil etdik. Əliyə də öz bilik səviyyəsinə uyğun tapşırıqlar verildi. O isə tapşırıqların öhdəsindən gələrək qalib oldu və ona verdiyimiz hədiyyəyə çox sevindi. Beziləri autizmi xəstəlik ya bacarıqsızlıq kimi görürlər. Ancaq autizm saf bir həyatdır. Buna görə biz valideynlər qətiyyən məyus olmamalıyıq. Əziz analar və atalar, bütün uşaqların bizim sevgimizə ehtiyacı var. Heç bir çətinlik bizi ruhdan salmamalı və biz övladlarımızla birgə addımlamalıyıq.